Məhzyn
[Maḥzūn]:

Şəriət xadimi.

Baku 1927

Fai
28580

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

ƏLI MƏHZYN

# ƷƏRIƏT XADIMI



AZƏRNƏƷR
Baqь — 1927

Fai 28580

Fai
28580

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-192015415-881870188-12

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

ƏLI MƏHZYN

1930/228

# ƺƏRIƏT XADIMI

(Heqajə)

Fai 28580

AZƏRHƏƺR
Baqı — 1927

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-192015415-881870188-12

Bibliothek der
Deutschen
Morgenländischen
Gesellschaft.

AZƏRNƏƷR
Birinci mətbəədə
basıldı.

Baз mətbyat mudirliji 2267 Sıfarıз 648 Sajı 3000

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

# Ʒəriət xadimi

(By heqajədə ɋɵstərilən əhvalat bir neçə mollalarьn həjatьndan ɋɵturulub bir jerə toplanьlmьʒdьr. Tə'zijə ajinlərinin isə *muxtəlif ʒəhərlərdə* mutədavil olanlarь cəm edilmiʒdir)

Məscid lim-ha-lim doly idi. Ak, kьrmьzь və kara sakkallardan baʒka, juzlərcə də on beʒ jaʒьndan beʒ jaʒьna qibi yʒaklar ortalьga səpələnmiʒdilər. Məscidin kyry həsirinin ustundə otyran by camaata bakdьkda, agьla doldyrylmyʒ kojyn surusunə bənzəjirdi. Bir tərəfdən də butun məscid bojy asьlmьʒ jamaklь pərdənin dalьndaqь balkondan arvadlarьn kьr-vьrь, haj - quju, yʒaklarьn aglamasь və jer ustundə dalaʒanlarьn «aj qəpəjin kьzь, hara durtulursən!» kьʒkьrtьlarь eʒidilirdi.

Çaj daha verilmirdi. Samavarlar pokyr - pokyr kajnajьb məscidi byg ilə doldyryrdy. Çajlar istəqənlərdə doly kalmьʒdь. Çaj pajlajanlar və ətrafdaqьlar karьnlarь dytdykca içmiʒdilər; çaj pajlajanlar camaat arasьndan ɵtub qeçməq uçun, jol tapa bilmədiqlərindən dajanьb dyrmyʒdylar. Cmaat, hər qəs istədiji qibi qəndələn, uz-uzə, dal - dala qimi bagdaʒ kyryb, qimi dizi ustundə, qibi çɵmbəlib qimi də ajaklarьnь yzadьb otyrmyʒdylar. Hamьdan tər sel qibi akьrdь, papros, kəljan, çybyk və samavarьn tustusu, bygy, çirqli bədənlərin ufynəti havanь o kədər agьrlaʒdьrmьʒdь qi, nəfəs çəqməq belə çətin olyrdy. Səs - qujdən, kьʒkьrtь və bagьrtьdan, agьz dejəni kylak eʒitməjirdi. Arvadlar dejən qibi tam mə'nasь ilə bir «zənənə hamamь» idi. Ogyrlamasьnlar dejə bir çok adamlarьn da janьnda və koltygynda dəsmala və qagьza buqulmuʒ baʒmaklar da ɋɵrunurdu.

Salavat ɋyryltysy kopdy. Nəziq, jogyn, xьr - xьr və hər no' səslər bir - birinə karьʒьb, elə bil qi, bir karaçь dəstəsinin kьl-kalьna bənzəjirdi. By ɋyrylty altьnda javaʒca addьmlar ilə və qamalu - vəkar ilə sejid Əli - aga mənbərə dьrmaʒьb çьkdь, dodaklarьnь tərpədə - tərpədə mənbərin baʒ pilləsində əjləʒdi, iqi dəkikəjə qibi camaatь və ələlxusys balkony muəmmalь bakьʒlarla suzdu.

Sejid Əli - aga; orta bojly, top sarь sakkallь, iri byrynly,

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-192015415-881870188-12

yzyn bagazlь, ʒiʒman karьnlь, iri və hiləƣər bakьʒlь ƣəzləri, çataklь kaʒlarь qiçiq baʒlь, sejrəq diʒli, kalьn dodaklь,,jeqə əmmaməli və kьrmьzь sifət adam idi. Onyn mə'nalь bakьʒlarь səs-quju qəsə bilmədi. Nihajət məscid hampasь və həmiʒə tə'zijələrdə ortalьkda kyjryk bylajan Hejdər-bəj ajaga dyryb:

— «Atana lə'nət aj səs quj salan!» dejə bir neçə dəfə ycadan bagьrdь. Qiʒilər bir az saqit oldylarsa da, arvadlarьn çьgьrbagьrь qəsilmirdi. Hejdər - bəj balkona çьkdь və baʒьnь pərdənin bir tərəfindən içəri yzadьb «aj qɵpəq yzagь, aj qɵpəq kьzlarь sysyn!» dejə bagьrdь. Hejdər - bəjin bir çok səjuʒlərindən sonra ancak qi, arvadlar bir az saqit oldylar.

By ƣyn tasya ƣynu idi. By ƣyn sejid Əli - aga uçun tarixi bir ƣyn idi, hər ilqi qibi by il də sejid Əli - aga ulƣuc - biləjunu hazьrlajьb, camaatь tər təmiz kьrxacak idi. Jalьnьz bir sejid Əliaga dejil, by ƣyn nevhəxan da, ʒəbeh çьkardan da, zəncir dəstəsi duzəldən də daha dogrysy fьrьldakçьlarьn hamьsь, pyl alacak idilər. Ona ƣɵrə də sejid Əli - aga by ƣyn ɵzunu ƣɵstərməq uçun bərq hazьrlaʒmьʒdь.

Sejid Əli - aga sejid - Cavadьn oglydyr. Sejid Cavad ən məʒhyr sejidlərdən olyb, ɵzu də jeqə molla idi. Onyn məsciddəqi hucrəsi bir tacir duqəni qibi, həmiʒə muʒtərilərlə doly olardь. Sejid - Cavad əslən iranlь idi. O, ancak otyz il olardь qi, bizim ʒəhərə ƣəlmiʒdi. Ƣəldiji zaman fala bakьb, dya jazьb,tas kyryb, cadь jazьb, hətta dərviʒliq də elərdi. Iranda da vəbalь dejənlərin bojnyna-dejirdilər qi, sejid dejilmiʒ, Təbrizdə də Karь - qɵpruʒunun baʒьnda məʒhyr mehmanxanalardan birisində «komisjəçi» olyb sənəti də adam ƣɵruʒdurməq imiʒ. Bizim ʒəhərdə mə'minlər, mukəddəslər çok oldygy uçun bir neçə ilin içində bɵjuq ʒɵhrət tapdь, muridləri çokaldь və sejid - Cavad da o qi, lazьmdьr çylyny duzəltdi. Sejid - Cavad: qəbin qəsir, talak verir, sigə okyjyr, vəhʒət namazь kьlьr, xumsu - zəqat alьr, imam malь jьgьr, jetimlərə vəsi - kejjym olyr, əmanət saklajьr, Məqqəjə ƣetməjib ɵlən varlьlarьn nijabətini ƣɵturub jejir, və xəlvətcə də xusysi dallallar vasitəsi ilə pyl sələmə verirdi. Alverçilər ony jaxʒь tanьjьrdьlar, lazьm olanda ona veqsel verib, manata altь ʒahь, sələm ilə pyl borc ala bilirdilər.

Sejid - Cavad bizim ʒəhərə ƣələndə sejid Əli - aga ancak 10 jaʒьnda olardь. Boʒ kalmasьn dejə atasь ony məʒhyr «Camal pərəst» lərdən çajçь qabla - Zejnalьn janьnda ʒəjird kojmyʒdy. Sejid Əli - aganьn bir az «ʒyx» vaktь oldygy uçun o səbəbə də qabla - Zejnalьn duqəninə bir çok məʒhədi və qablajьlar muʒtə-

ri olmyʒdylar. Sejid Əli - aganьn ustundə bə'zən by muʒtərilərin arasьnda dava da duʒurdu, vəbalь dejənlərin bɵjnyna, dejirdilər qi, sejid Əli - aganь o zaman koçylar ogyrlajьb, aparьb bir həftə baglarda sakladьkdan sonra, ysta - Zejnaldan da bir az cib xərcliji alьb byrakmьʒdьlar.

Beʒ il sejid Əli - aga, qabla - Zejnalьn duqənində kaldь. Hamь, sejid Əli - agaja o zaman «qabla - Zejnalьn mirisi» dejirdilər. Bir ƣun çajxanaja ƣələn bir tiflisli tacirin pyllarьnь ogyrlamak ustundə sejid Əli - aganь həbs etdilər, məhqəməjə verdilər və bir il dystak qəsdilər.

Dystakdan çьkandan sonra daha qabla - Zejnal ony duqənə kəbyl etmədi. «Jeqəlibsən ƣet ɵzunə iʒ tap!» dedi. Boʒ biqar kalan sejid Əli - aga bir iqi il də atasьnьn janьnda kalьb dərs okydy. Ancak ƣecələr sabaha qibi mejxanalarda kymarxanalarda, fahiʒəxanalarda və bə'zi by qibi mьrdar jerlərdə vaktьnь qeçirdiji uçun sejid - Cavadьn da namьsь byny ƣɵturmurdu. Hələ jeri duʒəndə sejid Əli - aga atasьnьn cibindən və sandьkdan da pyllarьnь ogyrlajьb aparьb loty - potylar ilə qefə, ƣuzarana və pis jollara xarclajьrdь. By zamanlar sejid - Cavadьn iʒi xьrda-xьrda tərəkki tapьrdь. Xalkь ɵzunə rəgbətləndirmiʒdi. Nəzir - nijaz və sajir mədaxil jollarь açьlьb, javaʒ - javaʒ da çokalьb bollaʒьrdь. Olmazьn həjasьzlьgь japan və min curə pis əməllərə murtəqib olan ogly sejid - Əlinin ycyndan rusvaj olmamak və oglyny da ɵzu qibi molla etməq istədiji uçun, sejid Əli - aganь Təbrizə okymaga ƣɵndərdi.

Sejid Əli - aga tamam on il Iranda kaldь. Jenə vəbalь dejənlərin bojnyna dejirdilər qi: «sejid Əli - aga Təbrizdən duz bir baʒ Xorasana ƣedib, zijarətə ƣələn məʒhədilərə sigə arvadlar tapьb sьgə dallallьgь eləməqlə dolanьrmьʒ və bə'zən pyly çok olan zavvarlarь da, ƣɵzəl arvadlarьn vasitəsi ilə aldadьb, xəlvət jerə aparьb ɵldyrərmiʒ və pyllarьnь da sojyb, cəmdəjini də xaqriz elərmiʒ».

Sejid Cavad varlandьkdan sonra sejid Əli - agaja sьfarьʒ ƣɵndərib çagьrdь və ɵz muridlərini də camaatьn arasьna salьb oglynyn bɵjuq molla və hətta muctəhid oldygy ʒa'jiəsini jajdь.

Ƣunlərin bir ƣununda «sejid Əli - aga təʒrif ƣətirir» xəbəri çьkdь. Sejid - Cavadьn muridləri piʒvaz uçun adam toplamaga baʒladьlar. Ʒəhərdən on iqi verst qanardaqь Danalь qəndinə qibi juzlərcə camaat kabaga ƣetdi. Munacat, salavatlar, təntənə və calal ilə sejid Əli - aga ʒəhərə varьd oldy. Hər qəs jujurə - jujurə ƣəlib, onyn əllərini ɵpurdu. Qabla - Zejnal da by ƣyryltyny

eʒidib, duqəndən çьkdь. Jakьndaqь adamlardan xəbər bilməq istərqən, by sɵzləri eʒitdi:

— By qi, qabla Zejnalьn mirisi imiʒ ony qim tanьmьr!

Sejid - Cavadьn kapьsьnda hamь dajandь. Sejid Əli - aganьn kabagьnda birdən altь kojyn kyrban qəsdilər və ony bɵjuq calal ilə evə daxil elədilər. Bir həftə hər ƣun ʒəhər camaatь pejdər-pe sejid - Cavadьn evinə ƣəlib, sejid Əli - aganь zijarət edib ƣedirdilər.

Sejid Əli - aga ƣələndən sonra jenə də atasьna çok əzijjət verdi. Hər zaman ɵzunu atasьndan mukəddəs ƣɵstərməjə çalьʒьb, camaatь ɵzunə tərəf çəqməjə sə'j edirdi və by səbəbdən də ata ogylyn arasьnda javaʒ - javaʒ ədavət tərənirdi. Sejid - Cavadьn evindəqi arvad və kьzlara da ƣɵz jetirirdi, hətta bir ƣun sejid - Cavada nəzir olarak jakьnlarda onyn evinə ƣɵndərilən və atasьnьn arvadь hesab olynan, on jaʒlь balaca kьzь xəlvətcə zorlamьʒdь. Sejid - Cavad da ahvalatь bilib və rusvaj olmakmakdan ɵtru kьzьn baʒьnь batьrmьʒdь.

By ahvalatdan bir il sonra sejid - Cavad ɵlub ƣetdi və butun ʒəhər ak - sakkallarьnьn tərəfindən ehtiramla aparьlьb basdьrьldь. Hələ kəbrinin ustundə də jeqə bir ƣunbəz tiqildi. Jenə də vəbalь dejənlərin bojnyna, dejirdilər qi, ƣyja sejid - Cavadь «qif» arazь dytyb,bir tərəfi də çənq olmyʒdy,hələ ƣyja iqi ajda tamam dili dytylyb, bir sɵz də danьʒa bilməjib lal kalmьʒdь. Axьrda da ƣyja sejid Əli - aga tənƣə ƣəlib, həmi atasьnьn pyllarьna, həm də hər il nəzir ƣətirilən kьzlara sahьb olmak uçun, mɵhtərəm dədəsinə zəhər vermiʒdi.

Imdi sejid Əli - aga, sejid - Cavadьn jerini dytyb, butun ʒəhərdə birinci molla və bɵjuq qəʒf qəramət sahibi sajьlьrdь. Ancak jenə də boʒ - bogaz adamlar dejirdilər qi, sejid Əli - aga ancak qi, adьnь jaza bilir elmi zadь jokdyr», əlbəttə qi, belə dyʒman sɵzlərinə xalk ьnanmazdь, ona ƣɵrə də sejid Əli - aganьn həmiʒə hɵrməti artьb məclis də hər zaman by ƣunqu qibi lim - ha-lim doly olyrdy.

Azacьk saqitliq olandan sonra Aga bir ɵqsurdu və sakkalьnь tymarlaja - tymarlaja bir neçə dəkikə ƣɵzlərini balkonyn kabak cərƣəsində çɵmbəltmə otyran ƣɵdəq tymanlь arvadlara tiqib dedi:

— Ej Fatimeji - Zəhra qənizləri, Fatimeji - Zəhra by ƣun by saat by məclisdə hazьr - nazьrdьr. Siz də saqit olyn!

By sɵzlərdən sonra tamam bir suqyt oldy. Sejid Əli - aga həmiʒə mev'izə eləjib sonra da mərsijə dejirdi və mev'izə zama-

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-192015415-881870188-12

nıında həmişə heç bir tərəfə bakmajıb, qөzlərini balkona tiqib, arvadlara saj salardı.

Bir salavat çөjurduqdən sonra Aga mev'izəjə başladı.

— Ej camaat, ej allahın jazık bəndələri, siz inanınız qi allah çok bөjuqdur. Onyn sөzunə bakmajıb, itaətindən xaric olanlar vələhum əzabun şədid. Nyhyn tyfanı nədən əmələ qəldi Lyt kevmi nədən bərbad olyb xaqilə jeqsan oldy? Şəddadın cəlalı nədən dagıldı? Inna nəhnu nəhjil - mevta! Bəli, aləmi - zərrədə sənin ryhyn bəli dejibsə xoşa sənin halına! Deməjibsə vaj sənin kijamətinə! Səni katran kazanına salacaklar: xəsərəddunja vəlaxirə! Ej Fatimeji - Zəhra qənizləri! Dyl kalmak haramdır, sybajlık haramdır, sigə olyn! Dyl kalmajın, hər sigə olan arvad gusul elijəndə onyn gusul syjynyn hər kətrəsindən juz min məlajiqə jaranıb, gusl eləjənə kijamətə qibi dya edərlər, bir qərrə salavat de!

Ucadan hamı səs - səsə verib, salavat çəqdilər. Hamı dikkətlə (ajı armyda bakan qibi) altdan jykarı agızlarını ajırıb qөzlərini də aganın «mubarəq» agzına tiqmişdilər.

Mev'izənin kızgın jerində, birdən balkonda kıl - kal kopdy: «aj qөpəq - kızı, aj it - kızı» səsləri ilə barabar şappıltı da başlandı. Pərdə jerindən kopdy. Bir dəstə arvadın vyryşmaları, saç jolmaları və başmak tajları ilə biri birinin təpələrinə dөjduqləri qөrundu. Ara karışıb, dəftər itmişdi. It jijəsini tanımırdı. Balkonyn qanarında vyryşma daha da kızgın idi. Birdən birə baklkonyn məxcəri şakkıltı ilə kırıldı, jeddi - səqqiz arvad və bir neçə də uşaklar qəllə - majallak təpəsi ustə şappadan aşagıdaqı qişilərin başlarına tөquldulər. Camaat hamı ajaga kalkdı. Kışkırtıdan sөjuşdən kylak dytylyrdy. Hejdər - bəj və bir neçə də məscid vəqilləri jykarı çıkıb, arvadların içinə sokyldylar. Zor - bəla ilə pis - pis sөjuşlərlə ancak qi, dalaşmanı qəsdilər. Kışkırık salan bir neçə arvadı bajra salıb, pərdəni asdılar və camaatı da bir təhər saqit etdilər. Hamı otyrdy, amma davanın nədən əmələ qəldiji bilinmədi. Amma mən belə xəjal elədim qi, dava balkonyn kabagına qeçib çombəltmə otyrmak ustundə olybdyr, çunqu Aganın qөzu həmişə balkonyn kabak tərəfindəqilərə bakdıgı uçun, Agaja sigə olmak istəjən arvadlar orada otyryb Aganın nəzərini өzlərinə cəlb edirdilər.

Vyryşma əsnasında mənbərin ustundə şyglu-zummə өlulər qibi qөzlərini dөjən sejid Əli - aga jenə də mev'izəjə başladı:

— Ej əşrəf - məxlykat, pejgəmbər өzu dejirdi qi, fə-ənqihy

niqah eləjin, boз kalmajьn, qərəq Məhəmməd umməti artsьn, din tərəkki eləsin...

Eзiqdən munacat səsi eзidildi. Hejdər - bəj agaja dyryb, məscidin ortasьnda adamlarь o tərəf by tərəf eləjib yzyn bir cьgьr açdь. Bir dəstə çьplak adamlar əllərində zəncir və kylaklara əzijjət verici, qərahətli səslərlə okyja - okyja qəlib, cərqə ilə duzuldulər. Birisi nevhə okymaga baзladь. Jerdə kalanlarь da зappa - зap zəncir vyryrlar. Zəncir vyranlarьn çokysy cavan yзaklar idi. Bynlarьn çьplak bədənlərinə hər tərəfdən hacь və məзhədilərin qөzləri zillənmiзdi. Balkondaqь arvadlar da by tamaзanь çok sevirdilər. Orada da bir çok çarзaflь arvadlarьn baзlarь aзagь əjilib, çьplak bədənlərə tamaзa edirdi. Quraqlər qөjərdi. bə'zlərinin dərisi cьrьlьb, kan dəxi o jan-by jana sьçramaga baзladь. Zəncir vyranlardan uç - dөrt nəfəri өzundən qedib, jerə jьkьldьlar. Onlarьn cəmdəjini qөturub apardьlar, zəncir vyranlar dəstəsi də onlarьn dallarьnca çьkьb qetdi.

Sejid Əli - aga hələ sөzə baзlamamьзdь qi, mənbərin dibində jenə kьl - kal kopdy. Hejdər - bəj cəld өzunu oraja verdi. Orada birisinin cibini qəsən qabla - Səmədi tapdalajьrdьlar. Hacь - Kasьmьn həmiзəqi qibi mənbərin dibində bagdaз kyryb jatdьgьnь qөrən qabla - Səməd, fursətdən istifadə edib, hacьnьn cibindəqi pyl qisəsini çьkardьgь zaman Hacь - Kasьmьn kardaзь qөrub, qabla - Səmədi qөtəjinin altьna salmьзdь. Nihajət dəjə - dəjə və uzunə tupurə - tupurə cibqir qabla - Səmədi bajьra çьkartdьllar.

Sejid Əli - aga butun by hadisələrə heç də əhəmmijjət verməjib jenə də mev'izəsinə davam etdi. By dəfə Aga өz urəji istədiji qibi, hyrilərdən gьlmanlardan dejib, kьrmьzь sakkallarьn agьzlarьnь sylandьrьrdь. Hər qəs, imam tə'zijəsində ancak bircə dəfə aglarsa və ja өzunu agladanlara okзadarsa, onyn butun qunahlarь hər nə kədər varsa və hər kədər eləmiззə, hamьsь bagьзlanьb, өzunə də baзь ərзdə, bir ajagь məgribdə və bir ajagь da məзrikdə olan jeqə bir hyri veriləcəjini səjləjirdi.

Jenə də səhbətin зirin jerində, məscidin lap ortalьgьnda kalmagal kopdy. By dəfə hər tərəfdən beз on adam vyryзyrdy. Jenə də hamь ajaga kalkdь. Səs - quj ycaldь. Hejdər - bəj və sajьr ak - sakkllar quc - bəla ilə vyryзanlarь bajьra çьkartdьlar. Mə'lym oldy qi, əttar hacь - Səfdər Kyly janьnda otyran on iqi jaзlь bir yзaga məhəbbət elərmiз; yзagьn kohymlarьndan da byny bir nəfər qөrub, hacь - Səfdər Kylyny silləlijib, hacь - Səfdər

Kylynyn oglanları da ona hucym edib, və by sajakla da mə'rəqə kızızıb, vyryзma duзmuзdu.

Lə'nət зejtana eləjib bir neçə salavatdan sonra sejid Əli-aga jenə də və'zində davam elədi. By səfər Aga lap səzlərinin yc-bycagını itirmiзdi. Orycy, namazı, imamı, guslu, hejzi, nəcasəti, cənabəti hamısını bir birinə katıзdırb, agzına qələni ujudub təqurdu. Nə səzlərində və nə də cumlələri arasında heç bir rabitə jokdy. Camaat da qimi jyklajıb, qimi murqulıjib, qimi ajaklarını yzadıb, qimi bitlənib qimi də, xısın - xısın səhbət eləjib, lakkkıltı vyryrdylar; kalanları da qəzlərini Aganın agzına tiqmiзdi. Aga da heç bir зejə fiqir verməjib camaatın cəmdəjinə doзəjirdi. Məsciddə dımagları əzici bərq bir ufynət var idi qi, by muhitə əjrənməmiз əcnəbi bir adam içəri qirsə idi, baзını qəturub bir jollyk kaçardı. Aga da yca jerdə otyrdygy uçun by ufynətdən daha da artık ləzzət aparıb və by səbəbdən də kızıзıb daha da fəsahətlə danıзıb dejirdi:

— Ja məhзərəl - muslimin (Aga ərəbcə heç bilmirdi, dediqlərini də agızdan, ondan - byndan əjrənmiзdi) innəllahə - vəlləzinə qanə jəqyn jə'ni ej musəlmanlar, ej Əlinin xalis зijələri, ej iman sahibləri, xumsu - zəqat verməjənin, sejidlərin və ryhanılarının hərmətlərini saklamajanların jerləri cəhənnəmdir, byny mən demirəm allah dejir, allah əz Kyrani - зərifində byjyryr qi, Ja jəhjəhul - qafyryn vələqum əzabi cəhənnəm зədida, ınanın ej ınanmajanlar, iman qətirin!

By zaman, jenə də bajırdan munacat səsi eзidildi. Camaat çaxnaзdı, Hejdər - bəj jenə jerindən kalkıb, ortalıkda jer açdı, by dəfə də sinəzən dəstəsi qəldi. Kabakda nevhəxan mirzə - Qəzənfər, janında əllərində kara ələm dytan iqi nəfər qəzəl yзaklar, dallarınca da əlli nəfərə qibi sinələri açık, sinə vyranlar qəlib, ortalıkda uz - uzə dyrarak iqi cərqə duzuldulər.

Mirzə - Qəzənfərin «təbi sojyk» idi, o məзhyr camal-pərəstlərdən olyb, by jolda da ad kazanmıзdı. On qun məhərrəmliq də onyn eзk - bazlıgı uçun ən əlveriзli bir zaman və fursət qunləri idi. Dəstədə iзtiraq edən sinə vyranlar isə, ən çoky «məзhyr» adamlar idi. Byrada cibqir - Həsən, kyldyr - Oryc, fırıldakçı - Mir Haзım, kymarbaz Abas, pijan - Sadık, qəfcil - məзhədi Gaffar, çajçı зəjirdləri, aзbaz зəjirdləri və hər no' «sənət» sahibləri imam joly oldygy uçun can və dil ilə səmimi iзtiraq edirdilər. 11 - 12 aj, hər no' - fırıldaklar və murdar iзlər qərən alçaklar by qun mirzə - Qəzənfərin nevhəsi ilə sinə vyryb qunahlarının hamısının bagıзlandırılmasına çalıзırdılar.

Mirzə - Gəzənfər səfin başında dyrdy. Ələmdar yşakları da sag solyna kojyb, bir - iqi dəfə əqsurduqdən sonra «ja Husen!» dejə bagırdı. Butun dəstə ona cavab olarak uç dəfə ycadan «ja Husen»! bagırıb saqit dyrdylar. Mirzə - Gəzənfər xırıltılı və ən qərahətli bir nevhə okymaga başladı. Okydygy nəvhə Lə'linin qalamından idi:

«Şamə Lejlanı çəqən əşki - Əli-Əqbər idi
«Necə Əqbər dejəsən syrəti - pejgəmbər idi»

Lə'linin by nevhəsinin gəribə bir tarixi var. Lə'li Təbrizdə oldygy zaman dəstə başılardan bir neçəsi ona muracəət edib, təzə bir sinəzən jazmagı rica etdilər. Jazmadı. Nihajət bir qozəl yşagın əlinə bir kaljan verib, və Lə'linin janına qondərdilər. Lə'li kaljanı alıb çəqdi, və karşısında dajanıb dyran yşakdan bir sezunuzmu var? - dejə sorysdykda bir nevhə jazmasını təvəkke' eləjir. «Lə'li» yşagın adını soryşyr. Əvəlcədən əjrədilmiş yşakda «Əli - Əqbər» dir dediqdən sonra «Lə'li» dəxi əlinə kələm alıb o saat!

«Şamə Lejlanı çəqən əşki - Əli-Əqbər idi
Necə Əəqbər dejəsən syrəti - pejgəmbər idi.,

. . . . . . . . . . . . . . . .

Ola bilməzdi jəkin Hacər ilə Ismajil
Husnudə Əqbərə, həm əşkidə Lejlajə ədil
Nə elə əşk - oli, billah nə belə husnu - cəmil
Bilmisiz by necə Əqbər, o necə madər idi?

. . . . . . . . . . . . . . . .

Nevhəsini oradaca jazıb verir.

Mirzə - Gəzənfər nevhəni okydykca və sezlərin məzmynyna nisbətən janındaqı ələmdarları ehtiraslı qezləri ilə suzub, ajdıncasına izhari - əşk eləjirdi. Ətrafda otyran kara, kırmızı və çal sakkal əmilərin də «amma nə qezəllər var» dejən, xısıltı və pıçıltıları eşidilirdi.

Mirzə - Gəzənfər butun var kuvvəsini sərf edib, camaatı lazımi kədər agladıb savaba jetirdi.

Nevhə kyrtardı, dəstə də javaş - javaş adamları aglaja-aglaja bajıra çıkmaga başladı. Birdən bir cırıltı səsi eşidildi və iqi nəfər sinə vyranların arkalıklarının dal ətəqləri cırılıb, uzulub, sallana kaldı, sən demə mənbər biclərindən birisi, onlar sinə vyrdygy zaman ətəqlərini məhqəm biri - birinə tiqmiş imiş. Ətəqləri cırılanlar bir neçə dəfə «qəpəq yşagı! imam tə'zijəsində də belə iş olar?» dejib səjduqdən sonra çıkıb qetdilər.

Mev'izə saat birdən başlanmışdı. Imdi isə saat dert idi.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

Sejid Əli - aga mev'izəni kyrtarıb, mərsijəjə qeçdi. Qərahətli bir səslə okymaga baʒlajan qibi camaatdan hɵqurtu kopdy. «Vaj agam vaj» dejə hər qəs papagını jerə kojyb, təpəsinə dɵjməjə, arvadlar da sinələrinə vyrmaga baʒladılar. Sejid Əli - aga səsini baʒına atıb, bar - bar bagırıb okyjyrdy:

— ɢərdum ol xali-sijah fami janak ustundə
Dedim aja nə karadır duʒub ak ustundə

Okyjyrqən aganın ɢɵzu balkonda idi. Bir dəfə ɵqsurub içini təmizlədiqdən sonra jenə də baʒladı:

— Ej kaʒı qaman, ɢɵzləri ɢɵj, zulfu pəriʒan,
By sejidi - biçarə canı, canına kyrban.

By bejtdən sonra daha da məclisi kızdırmak uçun aglamsına aglamasına jazık bir səslə dedi:

— Aglajın, aglajın, baʒınıza vyryn!

—Camaat daha da ycadan hɵqurdədi. «Vaj agam vaj» səsı butun məscidi burudu.

— Hər qəs aglamasa vələduzzinadən əmələ ɢəlib, sadik ʒiə ɢərəq aglasın. Ɵluncəjə kədər, kəbr evinə qibi aglasın!

Hɵqurtmə daha da ʒiddətləndi. Aga da agzına ɢələni dejirdi. Sɵzlərini eʒitməq kətijjən mumqun dejildi. Ancak bircə səsinin ygyltysy dyjylyrdy. Tamam jarım saat muddətində sejid Əli-aga bagıra - bagıra okydy. Nə okydysa ɵzu bilir. Camaat da heç bir ʒejə fiqir vermijib, ancak hɵqurdəjib aglaʒdılar. Təpə və sinələrini o qi, var tapdaladılar. Hihajət ɢecdən - ɢecə «bagıʒla bizləri ali - Abajə, ja allah!» dejə Sejid Əli - aganın əllərinin ɢɵjə kaldırıldıgını ɢeruncə hamı dəxi hɵqurdəjə - hɵqurdəjə «ja allah!» dejib əllərini ɢɵjə kaldırdı.

Dya kyrtardı. Imdi daha Sejid Əli - aganın ticarət bazarının, daha dogrysy sojkynçylyk iʒinin baʒlanmak vaktı idi. Hejdər - bəj və sajir məscid vəqilləri hərəsi bir tərəfdən camaatın içinə jajılıb, Sejid Əli - aga uçun nəzir, daha dogrysy verɢi toplamaga baʒladılar. Hejdər - bəj və sajir vəqillər hər qəsdən pyl alan qibi ycadan bagırırdılar:

— Əhməd - aga beʒ manat, Aga dya elə!

Aga da ɢuvə jemiʒ, sejrəq sakkalını tymarlajıb dejirdi:

— Ilahi, bari - pərvərdiɢara, sən Əhməd - aganın atasını, by ɢecəqi ɢecədə Fatimeji - zəhra xanıma konak ver!

— Soltan - bəj, on manat, Aga dya elə

Aga on manat adı eʒidən qibi daha da nəʒ'ə ustə ɢəlib bagırırdı:

—Amin dejən dillər lal olmasın! Ilahi, xudavənda bari-pər-

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

vərdiqara. sən by qecəqi qecədə Soltan - bəjin mərhymə anasını həzrət Abbasa konak ver! Θmrunu yzyn elə, devləti - Ibrahimi qəramət elə, həmişə onyn başından təq!

— Məşhədi Əsqər on şahı!

Aganı on şahı. bir o kədər də sevindirmədiji uçun dili dytar dytmaz dejirdi.

— Allah sən məşhədi-Əsqərin atasına rəhmət elə inşallah!

— Dəlləq - Ysta Kənbər bir abbası.

Byrada Aga lap pərt oldy və xala - xətrin kalmasın, istər istəməz dejirdi:

— Ysta Kənbər atana rəhmət!

— Həsən iqi şahı.

Byrada isə Aga øzunu eşitməməzlijə vyryb, agzını da açınırdı.

Vəqillərdən birisi uzunu arvadlar otyran balkona tərəf dytyb dejirdi:

— Analar siz də verin, bacılar sizdə verin! Aga øz agamızdır!

Arvadlarda, ərlərinin cibindən ogyrladıkları pyllardan Agaja nəzir verirdilər.

— Bacılarımızdan biri iqi manat verdi, Aga dya elə!

Aga da qøzlərini pyl verən arvadlara zilləjib dya eləməjə başladı:

— Allah, bacı, səni by qecəqi qecədə imam - Həsənə konak versin, allah səni və məni və hamını øz arzımıza çatdırsın!

By no'la pyl toplanırdı. Hərdən bir də Hejdər - bəj bagırırdı:

— Camaat, otyryn, məclisi dagıtmajın, verin, verin, Aga veriləsiagadır, øz agamızdır!

Saat beş oldy. Daha artık hamı sojylmyşdy. Bir nəfər də olsyn pyl verən jok idi. Camaat çok darıkmışdı. Sejid Əli - aga da byny dyjmyşdy, ona qørə də mənbərdən duşub zijarətnama okymaga başladı. Camaat hamı ajaga kalkdı və Aganın dalına duzulub zijarətnama okyjandan sonra, bajırda məscidin həjətində qøstəriləcəq şəbehə tamaşa eləməq uçun dışarı çıkmaga başladılar.

Hejdər - bəj və sajir pyl toplajan vəqillər də dəsmala jıgdıkları pylları qøturub, mənbərin dibində Sejid Əli - aga ilə barabar əjləşib mədaxilin hakkı-hesabına bakmaga şury' elədilər. Sajandan sonra mə'lym oldy qi, cumlətan 712 manat bir abbası pyl jıgılmışdır. By halda mənbərin dibində Sejid Əli - aga tərə-

findən əvvəlcədən kojylmyз və pyl hakkı-hesabına nəzarət edən murid «On manat əjsiqdir» dejə Sejid Əli - aga kylagına pıçıldadı. Sejid Əli - aga da uzunu pyl toplajanlara dytyb dedi:

—Pyl qərəq jeddi juz ijirmi iqi manat bir abbası olajdı. On manat əjsiqdir!

Pyl toplajanlar biri birinin uzunə bakdılar. Ancak bircə Hejdər - bəj kızardı və hakkı - hesab aparan muridin onyn uzunə dikkətlə bakdıgını qөruncə ciblərini təquзdurməjə baзladı. Nihajət bir neçə dəkikə kyrdalandikdan sonra, cibindən iqi dənə beзliq qagız çıkardıb, pylların ustunə kojdy.

Sejid Əli - aga pylları səlikə ilə sajıb buqdu. Hejdər - bəjə beз manat və kalan vəqillərinə də hərəsinə uç manat kısdırıb «yзaklara çərəz alarsınız» dejə kalan pylları da qisəsinə doldyryb cibinə kojdy. Sejid Əli - aga Hejdər - bəj və kalan vəqillər dəxi həjətdəqi зəbehə tamaзa eləməq uçun bajıra çıkdılar.

Kapının agzında jeqə kijamət idi. «Atana lə'nət aj өzqə baзmagı qejən, atana lə'nət aj baзmak ogyrlajan!» səslərindən kylak dytylyrdy. Ən azı otyz - kırk adamın baзmakları ogyrlanmıзdı. Ajak jalın kalanların çokysy baзmak qөzləjən mucavirin jakasından japıзıb kıзkıra - kıзkıra dejirdilər:

— Sən өzun ogyrlajıbsan, ver vəssəlam!

— Bildir məhərəmliqdən sonra sənin əlli cutə qibi baзmak satdıgını hamı dejir, ver bizim baзmagımızı qөpəq ogly!

Mucavir də aglaja - aglaja dejirdi:

— Aj agalar, Həzrət - Abbas hakkı mənim xəbərim jokdyr. Allah baзmak ogyrlajanların evini jıksın!

Sejid Əli - aga, өz muridlərindən olan mucavirin jakasını kyrtarmak uçun isə karıзıb dedi:

— Həzərat, mucavirin xəbəri jokdyr, allah baзmak ogyrlajanlara өzu cəza verəcəq, sizə də o dunjada jəkin qi bynyn əvəzində bir huri verəcəqdir. Allah qərimdir!

Aganın by sөzundən ajak - jalın mө'minlər mucavirin jakasından əl çəqib, hər qəs evindən baзmak qətirməq uçun adam qөndərdi. Evdə baзmakları olmajanlar da ajak - jalın evlərinə qetdilər.

Зəbehin baзlanmasına az kalmıзdı. Məscid həjətinin ortalıgında bөjuq bir taxt kajırılmıзdı. Ustu xalça ilə dөənib bir neçə də qursu kojylmyзdy. Taxtın janında ajrıca bir qursunun ustundə bir teзt sy kojylmyзdy qi, by «Fərat» çajının rolyny və ortalıkdaqı taxt da Qərbalada imamın xijməqahı rolyny ifa edəcəq idilər.

Ʒəbeh dəstəsinin rezissory, məʒhyr ʒəbehƣərdan mirzə -Ismajьl idi. Iʒtiraq edən artistlər isə oradan byradan toplanmьʒ muəjjən sənət sahibi olmajan adamlar idilər. Imam rolyny hacь molla - Məmməd Ʒatьr ogly ifa edirdi. By mollanьn bir çok ajrь vəzifələri də var idi. Məsciddə həmiʒə azan dejərdi. Dya jazardь, Kyran xətmi ƣɵturərdi, ɵlu jyjardь, təlkin verərdi, və hər fьrьldak desən çɵjurərdi. Hələ bynlardan baʒka butun ʒəhərdə ɵz ƣɵzəl xasijjətləri ilə məʒhyr idi. Qeçən il ʒəbeh çьkardanda Səqinə roly ojnajan bir oglana hucrədə məhəbbət elədijini ƣərmuʒdulər, bir neçə arvadьn da ƣɵbəƣlərinə dya jazdьgь zaman əli - yzynlyk elədijini butun ʒəhər nagьl edirdi. Ancak əmmaməsi oldygy uçun heç qəs ona bir sɵz dejə bilmirdi. Əli - Əqbər rolyny, kьrmьzь sakkal qərbalajьlarьn xoʒlandьgь çəp - Tagь, Səqinə rolyny - çajçь - Kənbərin ʒəjirdi Rьza; Zejnəb rolyny at dallalь məʒhədi - Əhməd, Qulsum rolyny məʒhyr ʒaʒ Rəhim, Həzrət Abbas rolyny tirjaqь - Həsən; Cəbrajьl rolyny məʒhyr arvad dallalь, kьz - Məmməd, və kalan rollarь da muəjjən iʒləri olmajьb, ancak imam, din və ələl - xusys pyl xətrəsi uçun on ƣun məhərrəmi mirzə - Ismajьlьn baʒьna toplanan, cibƣirlər, dam - dələnlər, kymarbazlar və sajirləri ifa edirdilər. Jezid və Ʒumur rollarьnь isə məʒhyr qababçь Jezid məʒhədi - Ismajьl ojnardь. Ancak imamьn səfaji-batinindənmi, nədənmi by ƣun məʒhədi - Ismajьl azarlamьʒdь və onyn roly da boʒ kalmьʒdь. Byndan baʒka, by ƣun ən calallь və dəstƣahlь ʒəbeh çьkarьlacagь uçun iqi nəfər də artьk adam lazьm idi qi, Jezidin koʒynynyn rolyny ojnasьnlar, ancak by ƣunqu ƣundə heç bir ʒiə ogly ʒiə Jezid, Ʒumur flan roly ojnajьb, ɵzunə və atasьna lə'nət okytmaga razь olmadьklarь uçun, Jezidin və koʒynynyn rollarь jerdə kalmьʒdь.

Mirzə - Ismajьl subh tezdən quçələrə duʒub, Jezid axtarьrdь, hər qəsə uz dytdysa ʒiələrdən heç qəs razь olmadь. Nihajət əlacsьz kalьb, ɵzƣə millətdən tapmaga karar verdi. Komʒylarьndaqь ləzƣi Abdyllahь çagьrьb, iqi manata Jezid olmaga razь elədi. Zyrnaçь Krikor ilə dumbəqçi Vartanь dəxi hərəsini manat jarьma danьʒьb sɵz aldь.

Sejid Əli aga zahirdə ʒəbeh dəstəƣahьna heç karʒьrdьsa da ancak xəlvətcə mirzə - Ismajьl ilə ʒəriq idi. Aʒyra ƣunu hər məsçiddə axьrьncь ʒəbehi ƣɵstərəndən sonra camaatdan pyl jьgьlьrdь. Sejid Əli - aga da pyl jьgьlan zaman çok qɵməq edərdi. O, həmiʒə ə'janlar ilə barabar bir jerdə otyryb və hər ʒəbehdə də isbati - vucyd elərdi. Pyl toplananda, sejid Əli-aga hamьdan əvvəl ɵzu on manat verərdi. Ə'janlar, tacirlər və sajirləri də ona

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881870188-12

baxьb, pyly çok verirdilər. Aşyranьn ƣecəsi isə hakkь - hesab ƣөrulurdu. Rol ojnajanlarьn hrəsinə beş - uç manat verib, jola salardьlar. Jerdə kalanьnь isə mirzə - Ismajьl ilə sejid Əli - aga bөluşdururdulər. Bynyn uçun də, sejid Əli-aga həmişə mənbərdə və sajir jerlərdə şəbeh çьkarmagьn nəfinə ƣuclu təbligat aparardь. Hər il şəbeh dəstəƣahьndan ən azь beş juz manat Aganьn cibişdanьna daxil olyrdy.

Şəbeh hazьrlьgь kytarmakda idi. Minarənin ustundən Cabrajьlьn endirilməsi uçun karkara asьlmьşdь. By ƣun qərbala vək'əsinin ƣyja ətraflь ƣөstərilməsi uçun təntənəli bir tamaşa duzəldilməqdə idi, mirzə - Ismajьl da by jolda butun rezissorlyk kuvvəsini sərf etmişdi.

Əvvəlcə bir munacat verildi. By camaatьn jerlərini dytmasь və şəbeh başlanacagьnьn işarəsi idi. Camaatdan bə'zisi kabakda, beş - altь çərƣə kyry dөşəmə daşьn ustundə otyrdy; dallalarьndan bir neçə çərƣə də ajak ustundə dyrdylar. Sejid Əli - aga, Hejdər - bəj və bir çok bəj, xan, tacir və varlьlar bir tərəfdə qursulərin ustundə otyrmyşdylar. Bir tərəfdə, qişilərdən ajrьca beş altь juz arvad uzlərini burujub əjləşmişdilər, məscid damьnьn ustu dəxi dөrt tərəfdən arvadlar ilə ihatə olynmyşdy. Aşagьdan jykarьja ƣөz - kaş eləjib alma və şirni tollajan cavanlar və jykarьdan aşaga ƣulumsəjən arvadlar dəxi nəzərə çarpьrdьlar. Məşhyr laglagьlardan Şьlьg - Ismajьl və muftəxorlyk və arvad dallalagьnda şөhrət tapmьş mir Həsən - aga mudiri - məsyl oldyklarь uçun, əllərində dəjənəq, o tərəf by tərəfə ƣəzinib, jer ƣөstərib, nizam saklajьrdьlar və hərdən bir də agalarьn өtyrdyklarь jerə tərəf jөnələn fəkirləri dajandьrьb «aj qəpəq ogly jerini tanь!» dejə ƣeri kajtarьb kavьrdьlar. Tacir, bəj və agalara qursu tapьb ƣətirirdilər. Məscidin kapьsьnda «şor noxyd» və şirnijjat satanlarьn şejlərindən də nəxunəq elədiqləri uçun agzьlarь da həmişə ƣөvşəjirdi.

Munacatdan sonra butun şəbehçilər dəstə ilə duzulub kabakda da kьz paltarьnda Səqinə və Ərys rollarь ojnajan iqi yşak cьrьltьlь səs ilə okyja-okyja ƣəlib, taxtьn ustunə çьkdьlar. Ləzƣi Abdyllah Fəratьn karaylçysynyn rolyny ojnadьgь uçun teştin qanarьnda kojyldy. Şumur rolyny, adam tapьlmadьgьndan mirzə - Ismajьl өzu ojnajьrdь. Krikor ilə Vartan da onyn koşyny idi.

